**UOT: 94 (479.24); UOT 930.2**

**ƏLƏDDİN MƏLİKOV**
*Azərbaycan İlahiyyat İnstitutunun dosenti,*
*"AcademyGate Publishing"-in elmi tədqiqatçısı*
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177
**aladdin.malikov@gmail.com**

# XACƏ NƏSİRƏDDİN TUSİNİN "BAĞDAD HADİSƏSİNİN KEYFİYYƏTİ" TRAKTATININ TƏRCÜMƏSİ VƏ QISA TƏSVİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/275-281

*Xacə Nəsirəddin Tusi həm böyük alim və nəzəriyyəçi, həm də görkəmli siyasi xadim olmuşdur. O Hülakü xanın və oğlu Abaqa xanın rəğbətini qazanmış, sarayda böyük nüfuz və hörmətə sahib olmuşdur. Həmçinin İlxanilər dövlətinin daxili və xarici siyasətinin təyin edilməsində mühüm rol oynamışdır. Monqolların İslam coğrafiyasına, xüsusilə də İslam xilafətinin mərkəzi Bağdada hücumu ciddi nəticələrlə yadda qalıb. O cümlədən Bağdadın süqutu, Abbasilər sülaləsinin aradan getməsi, xəlifənin öldürülməsi və sözügedən coğrafiyada geniş dağıntıların ortaya çıxması onların hücumunun nəticələri kimi qiymətləndirilir.*

*Bu məqalədə sözügedən ittiham barədə qısaca məlumat vermək və onu ən qədimi tarixi mənbələrə əsaslanaraq təkzib etmək niyyətindəyik. Buna görə qərara gəldik ki, ilk mərhələdə "Cahangüşa-yi Cuveyni" kitabında gələn Xacə Nəsirəddin Tusinin (şəxsən özünün yazdığı) "Bağdad hadisəsinin keyfiyyəti" adlı qısa traktatının (risaləsinin) mətnini tərcümə edək. Bu traktatın qısa olmasına baxmayaraq, Hülakü xanın döyüşlə bağlı qərar verməsindən ta Bağdadın tutulması və Abbasi xilafətinin dağılmasının daxili amillərinin təhlilinə qədər bütün məqamlara toxunulmuşdur. Traktatın əhəmiyyəti onun mövzu ilə bağlı ən yaxın və yaxşı iştirakçısı tərəfindən yazılmasıdır. Çünki əvvəla Nəsirəddin Tusinin özü Bağdad hadisəsinin əyani şahidi olmuşdur. İkincisi budur ki, Tusi bu əsərdə monqolların Bağdada yürüşünün mahiyyətini araşdırıb, Hülakü xanın bura yürüşündə özünün hər hansı bir fəaliyyəti və rolundan söz açmayıb. Üçüncü budur ki, əgər Tusi bu hadəsədə rolu olmuş olsaydı və ya başqa əqidə daşıyıcılarından intiqam almaq fikrində olsaydı, baş verənlərlə bağlı azacıq da olsa öz roluna işarə edər və ya öz rolunu və razılığını nümayiş etdirərdi. Halbuki bu traktatda əsla bu məsələ müşahidə edilmir.*

*Açar sözlər:* Nəsirəddin Tusi, Bağdadın süqutu, Hülakü xan, Son Abbasi xəlifəsi, Mötəsim.

***Giriş.*** Hücum edən qövmün, yəni Moğolların bölgədə yerləşməsindən yarım əsr sonra İbn-Teymiyyə Hərrani (h.q.661-728, m:1263-1328) tarixi faktlara istinad etmədən böyük mütəfəkkir Xacə Nəsirəddin Tusinin (1201-1274) Hülakü xanı (1217-1265) təhrik etməsi və (Bağdada hücumla bağlı) əməkdaşlıq etməsinə dair ittihamlar irəli sürmüşdür. İbn-Teymiyyənin İbn-Qəyyim əl-Cövzi (h.q: 691-751, m:1292-1350) kimi şagirdləri də bu ittihamları təkrarlayıb, öz kəlam, tarix, rical, hətta əxlaq kitablarında yazıb, yaymışlar.

Bir haldakı Xacə Nəsirəddin Tusinin siyasi fəaliyyəti daim öz xalqının içindən çıxmış sadə adamların və eləcə də elm adamlarının və üləmaların mənafelərinin ödənilməsinə yönəlmişdir. 1258-ci ildə Hülakü xan Bağdadı tutarkən məhz N.Tusi onu yol verə biləcəyi böyük dağıntı və qırğınlardan çəkindirmişdir. Şəhəri dağıtmağa elm və mədəniyyət adamlarına divan tutmağa qoymamışdır. Hökmdarın əsəblərini cilovlamağa çalışmışdır. Hətta Xacə Nəsirəddin Tusiyə pislik etmiş xəlifənin vəziri İbn Vacib Nəhvini tapdırıb onu xilas etmiş və ona böyük qayğı göstərmişdir. Bu xəbəri eşidən Hülakü xan çox xoşhal olmuş və onların hər ikisini təqdir etmişdir. Xacə Nəsirəddin Tusinin Bağdad üləmasına və əhalisinə və həmçinin şəhərə etdiyi bu yaxşılıqlar dövrünün qələm sahibləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Xacə Nəsirəddin Tusi Hülakü xanı inandırmağa çalışrdı ki zəbt olunmuş torpaqlara dövləti münasibət bələmək lazımdır. Beləki Fəzlüllah Rəşidəddin "Came ət-Təvarix" əsərində yazırdı ki, Xacə Nəsirəddin Tusi işğal olunmuş ərazilərin viranə qalmaması üçün onların maliyyə və büdcə məsələlərini nizma salmağı tövsiyə etmişdir. Baxmayaraq ki, monqollar onu

zindandan xilas etmişdilər. Amma o monqolların istilaçı müharibələrini daim tənqid edir və sülhü təqdir edirdi. Bütün bu səbəblərə görə onun bu müharibəni başlatması töhmət və iftiradan başqa bir şey deyildir.

Bu traktat Ətaməlik Cuveyninin ərsəyə gətirdiyi "Cahangüşayi Cuveyni" əsərindən iqtibas edilib. Yazının əvvəli belədir: "Alimlərin ən fəzilətlisi, bəşərin ustadı haqqın və dinin yardımçısı mərhum Məhəmməd ibn Məhəmməd Tusinin nüsxəsindən" (1).

***"Cahangüşayi Cuveyni" əsəri haqqında***. "Cahangüşayi Cuveyni" tarixi məşhur tarixçi və ədib Ələddin Ətaməlik Məhəmməd Cuveyninin (h.q: 681-623) monqolların, xarəzmşahilərin, Ələmutdakı ismaililərinin 655 hicri ilinə qədərki zamanı ehtiva edən tarixi haqqında kitabıdır. Ədəbi və tarixi baxımdan mühüm əsərlərdən sayılır. Hicri təqvimi ilə yeddinci əsrin sayılıb-seçilən əsərlərindəndir. "Tarixi Cahangüşayi Cuveyni" adı ilə məşhurlaşmış bu kitab İslamdan sonrakı tarix və coğrafiya üçün, xüsusilə də monqolların zamanı üçün klassik və əhəmiyyətli mənbələrdəndir. Əsər Məhəmməd Qəzvininin (h.ş: 1256-1328, m: 1874-1949) vasitəsilə və onun düzəlişləri ilə 1937-ci ildə nəşr edilib. Qəzvini kitaba əlavə etdiyi girişdə yazıb:

"İslamdan sonra indiyədək baş verən hadisə, hətta tarixin ən mühüm hadisəsi monqolların dəhşətli hücumları və basqınlarıdır. O keşməkeşlərin içində və firnə dalğalarının ortasında bu vəhşiləri qətlinə, qarətinə, taracına ən çox məruz qalan məmləkətləridən biri bizim bədbəxt (İran) vətənimizdir. Belə ki, monqolların dünyanı bürüyən bu tufanı o ölkənin eni və uzununu alt-üst etdi. O dəhşətli hadisənin yandırıcı şölələri məmləkətləri başdan-başa yandırıb yaxdı. O məşum hadisədə minlərlə və yüz minlərlə günahsız insanın canına qıyıldı, elm bə ədəb mərkəzləri büsbütün yandırıldı, yerli sərvət və sənaye resursları məhv edildi, alimlər və fəzilətli insanların hamısını bir yerdə qoyun kimi kəsdilər. Kitabxanaları və kitab oxuyanları yox edib aradan qaldırdılar. Monqolların İran coğrafiyasını istila etməsinin ən yüngül zərər və nəticəsi bu idi ki, elm və ədəb bu bölgədə ən aşağı dərəcəyə endi, bir məmləkətdə ədəbiyyatın tənəzzülünün ən aşağı dərəcəsi nədirsə o baş verdi. Bütün bunlarla yanaşı qəribə bu idi ki ədəbiyyat və elmin bir sahəsi yəni *tarix* monqolların dövründə tam şəkildə rəvac tapdı və böyük tərəqqi yolu keçdi. İndiyədək fars dilində yazılmış nəfis tarix kitablarının bir qismi o dövrdə qələmə alınmışdır. O cümlədən həmin bu kitab, yəni Ələddin Ətaməlik Cuveyninin "*Tarixi Cahangüşa*" kitabı hicri qəməri təqvimi ilə 658-ci ildə yazıldı.

Bu əsərin müəllifi illərlə Arqun xan, Hülakü xan və oğlanlarının, həmçinin Abaqa xan və Tekuder xanın sarayında vəzifə sahibi, habelə o dövrün çoxlu hadisələrinin yaxından şahidi olmuşdur. Hadisələrin bir qismini də dövrün şahidlərindən, xarəzmşahilər və monqolların sarayında olan qohumlarından eşidib. "*Tarixi Cahangüşa*" sırf tarix kitabı deyil. Çünki müəllif hadisələri yazan zaman iqtisadi və ictimai vəziyyət, şəhərlərin quruluşu, onların coğrafi mövqeyi və şəhərlərin qədimi adları barədə misli görünməyən məlumatlar verir (2).

Ələddin Əbul-Muzəffər Ətaməlik ibn Bəhauddin Məhəmməd Cuveyni (h.q: 623-681) hicri təqvimi ilə VII əsrin ədibi və tarixçisidir. "Cahangüşayi Cuveyni" və "Risaleyi təsliyətil-ixvan" onun əsərləridir. Monqol dövrünün nəsr müəlliflərindən idi. Onun "Cahangüşayi Cuveyni" tarix kitabı mürəkkəb nəsr mətninə malikdir. Bu kitab Çingiz xanın hərəkatının başlaması, onun əhvalı və fəthləri haqda, xarəzmşahilərin tarixi, İsmaililərin və Həsən Səbbahın canişinlərinin qalasının fəthi barədə yazılmışdır.

***Müəllif, Ələddin Ətaməlik Məhəmməd Cuveyni haqqında***. Ələddin hicri-qəməri təqvimi ilə 623-cü ildə Xorasanın Cuveyn əyalətinin Azadvar şəhərində anadan olub. O Divana rəhbərlik edən Cuveyni xanədanındandır. Bu sülalə qədim zamanlardan və monqollardan öncə hakimiyyət sistemində, adətən divan sədrliyi postunu öhdələrinə götürmüş şəxslərdən ibarət olublar. Daha qədimi zamanlarda əcdadları Abbasi xəlifələrinin vəzirliyi və haciblik postunda (*hökmdarların dövlət məmurları və insanlar ilə görüşlərini əlaqələndirmək və təşkil etmək üçün məsul şəxs, dövlət məmuru*) olublar. Atası və babaları hicri-qəməri təqvimi ilə V, VI və VII əsrdə (xarəzmşah) Sultan Cəlaləddin Mənugəberdinin və Oqtay Xanın zamanında həmişə böyük rəsmi vəzifələri tutmuş divan başçıları idilər. Ətaməlik gənc yaşlarından divanda işə başladı. Xorasanın əmiri Arqunun xidmətində durdu. Onunla birgə iki dəfə monqolların paytaxtı Qaraquruma səfərə getdi. Bu səfərdə monqolların vəziyyətilə yaxından tanış oldu. Elə bu səfərlərdə monqolların fəthləri mövzusu ilə bağlı bir kitab yazmağa başladı ki, sonralar bu kitab "Tarixi Cahangüşayi Cuveyni" adı ilə tanındı. Hülakü xan hicri-qəməri təqvimi ilə

654-cü ildә Xorasana gәlәndә Ətamәlik ona qoşuldu vә onun Əlәmut ismaililәrinә qarşı, habelә Bağdadda Abbasi xәlifәsinә qarşı döyüşlәrindә birgә oldu. O Hülakü xanın razılığını әldә edәrәk, Əlәmut qalasındakı kitabxananın bir hissәsini mәhv olmaqdan qoruya bilmişdi. Habelә o Bağdadın Hülakünün әli ilә süqut etmәsi (1258) zamanı xanla birgә idi. Növbәti ildә Bağdadın, Beynün-nәhrәynin vә Xuzistanın hakimi vәzifәsinә tәyin edildi. Hülakü xanın ölümündәn sonra Mәcdül-mәlik Yәzdinin mәkri ilә bir müddәt hәbsә düşdü. Sәrbәst buraxılandan sonra hicri-qәmәri tәqvimi ilә 681-ci ilin zihiccә ayının dördü şәnbә gününün gecәsi Aran bölgәsindә (indiki Azәrbaycan) vәfat etdi. Onun cәnazәsini Tәbrizә gәtirib, Çәrәndab qәbirsanlığında dәfn etdilәr.

Xacә Nәsirәddin Tusinin xәlifәnin qәtlә yetirilmәsi vә Abbasi xilafәtinin devrilmәsi ilә bağlı rolu haqda ittihamlar vә açıqlamalara dr.Əminağa Mәhәmmәdov "Tәcridül-etiqad" kitabına yazdığı tәrcümә vә şәrhin giriş hissәsindә tutarlı cavablar verib. Onun fikrincә әvvәla Hülakü xanın müşaviri olmaq onu (Abbasilәrә qarşı döyüş vә xәlifәnin qәtlә yetirilmәsinә) tәhrik vә tәşviq etmәk vә baş verәnlәrlә razı olmaq anlamına gәlmir. İkincisi budur ki, fәrqli bir (dinin vә) mәdәniyyәtin nümayәndәsi (mәsәlәn Xacә Nәsirәddin Tusi) monqolları Bağdadın әlә keçirilmәsi fikrindәn daşındıra bilmәsi vә ya atacaqları addımlarla bağlı onlarda tәrәddüd yarada bilmәsi mümkün deyil (3, s.15). Üçüncüsü budur ki, "peyğәmbәrin xәlifәsinin" qәtli vә ya "xәlifәnin peyğәmbәrin qohumlarından (Əhli-beytindәn) olması" mәsәlәsi önә çәkilirsә, qeyd edilmәlidir ki, Xacә Nәsirәddin Tusi (isna әşәri) imamiyyәdәn olduğu üçün İslamda dini vә ictimai mәrcәiyyәtin (vә legitimliyin) Peyğәmbәrә, onun (Əli vә Fatimәdәn olan) övladlarına vә Əhli-beytә xass olduğuna inanır. Buna әsasәn Tusi Abbasi xәlifәlәrinin sәlahiyyәtlәrini qeyri-legitim hesab edәn şәxsdir.

***Nәticә vә yekun***. Şübhәsiz monqolların dünyanı tutması xәyalı, xüsusilә dә onların Bağdada hәrbi yürüşü vә İslam xilafәti mәrkәzinin süqut etmәsi dәrin tәhlillәrә vә araşdırmalara ehtiyacı var. Bu dәhşәtli hadisәnin nәticәlәrindәn biri dә yarım әsr sonra hadisә әsnasında olan Xacә Nәsirәddin Tusi kimi bir sıra şәxsiyyәtlәrә ittihamların vә şübhәlәrin ünvanlandırılmasıdır. Mәlumdur ki bu kimi ittihamları rәdd ya isbat etmәk İslam ümmәti arasında münasibәtlәrә dә tәsirini göstәrir vә bundan sonra da gösәtәrәcәk. Bağdadın monqolların әlinә düşmәsi ilә bağlı diqqәtdә saxlanılası mәqam budur ki, yazıçıların bir qismi Xacә Nәsirәddin Tusini şәhәrin qanlı hadisәsinin sәbәbkarı vә tәşәbbüskarı kimi qәlәmә verirlәr. Digәr qism şәxslәr Xacә Nәsirәddin Tusini İslam xilafәti vә ümmәtinin birliyini sarsıdan şәxs hesab edir, belә düşdünürlәr ki, hәmin zaman xilafәt onun әli ilә aradan gedib. Lakin tarixә insaflı baxış zamanı belә aydın olur ki, Xarәzmşah sultanı ilә eyni dövrdә yaşayan Abbasi xәlifәsi dә monqol xanı Çingizә mәktub yazaraq, hәmin mәktubda onu İrana hücuma vә oradakı dövlәti (müsәlman Xarәzmşahları) aradan aparmağa tәhrik vә tәşviq edirdi. Şәksiz monqolların İran coğrafiyasına hücumu Bağdada hücumun başlanğıcı idi. Hәqiqәtdә Xacә Nәsirәddin Tusinin bu mәsәlәdә günahı olmayıb. Əksinә, әgәr Xacә Nәsirәddin Tusinin bacarığı, tәdbiri, siyasәti olmasaydı o qәdәr qanların tökülmәsindәn vә dәhşәtli hadisәlәrdәn sonra İslam dünyasının bu günkü vәziyyәti necә olardı?!

Monqolların Bağdada hücumu mәsәlәsindә Xacә Nәsirәddin Tusinin rolu barәdә araşdırma aparmaq üçün o dövrün hadisәlәrinә dair әhәmiyyәtli mәnbәlәr tәdqiq edilmәlidir. Buna görә Xacә Nәsirәddin Tusinin özünә mәxsus traktatın mәtni xüsusi önәm kәsb edir. Hәqiqәtәn dә "Bağdad hadisәsinin keyfiyyәti" traktatı çoxlu әdәbi, tarixi vә lüğәvi mәnbәlәr baxımından dәyәrlidir. Lakin bununla yanaşı mәtnin düzgün anlaşılması üçün onun qaranlıq mәqamlarının açılması vә aydınlaşdırılması da asanlıqla başa gәlmir. Buna görә ilk mәrhәlәdә traktatın zahirdә olan çәtinliklәri ilә qarşılaşırıq vә onun lüğәtlәrini o dövrdә işlәdilәn mәna etibarilә öyrәnib tәrcümә etmәyә çalışdıq. Bu qәdәr çәtinliklәrә baxmayaraq (böyük әhәmiyyәtinә görә) onu tәdqiq edib, әrsәyә gәtirdik. Qeyd edilәn çәtinlik qatının arxasında duran zәrif tarixi mәqamlar vә dәyәrli rәvayәtlәr xüsusi önәm kәsb etdiyi üçün bu tarktatı daha diqqәtlә tәdqiq etmişik. Bu mәtnin kafi hәddә araşdırılması vә tәhlil edilmәsi üçün göstәrdiyimiz çabaların sәbәbi mәhz belә әhәmiyyәtli olması ilә bağlıdır. Buna görә burada yalnız traktatın mәtninin tәrcümәsi gәtirilir vә tam aydın olması üçün oradakı söz vә bәzәn dә ibarәlәrin izahı mötәrizәdә verilir (8).

Tusinin traktatının mәtnindәn mәlum vә aydın olur ki, Hülakü xan Bağdadı әlә keçirәndәn sonra oranı qarәt etmәklә bağlı fәrman vermişdir. Xәlifә Mötәsim öz әllәri ilә әcdadının xәzinәlәrinin açarlarını ona vermişdir. Xacә Nәsirәddin Tusi yazır ki, Hülakü bir qab qızılı xәlifәnin qarşısına qo-

yub, ye dedi. O dedi ki, qızıl yeyiləsi deyil. Hülakü xan dedi: Niyə bu qızılları saxladın və ordunun adamlarına vermədin? Bu dəmir qapılardan niyə silah düzəltmədin və onunla Ceyhun çayının kənarına niyə gəlib mənim qarşımı kəsmədin? Xəlifə dedi: Allahın təqdiri belə idi. Hülakü xan dedi: Elə isə sənin başına gələcək iş də Allahın təqdiridir.

**Bağdad hadisəsi traktatının tərcüməsi**

**Alimlərin ən üstünü, bəşərin ustadı, haqqın və dinin yardımçısı mərhum Məhəmməd ibn Məhəmməd Tusunin (Allah ona rəhmət etsin) nüsxəsindən (1)**

**Hər iki cahanın Allahına şükürlər olsun!**

Əmin-amanlıq amili olan cahanın şahı Hülakü xan mürtədlərin bölgəsinə yürüş etmək istəyərkən o qövmü məhv etmək üçün xəlifəyə elçi göndərib dedi ki, mən elin başçısıyam və elin tərkib hissəsi olmağın əlaməti budur ki, biz bir bağda oturarkən (və bir mövqedə qərarlaşarkən) bizə bir odru ilə dəstək verəsən. Xəlifə vəzirləri və naibləri ilə neçə nəfərlik ordunun göndərilməsi ilə bağlı məsləhətləşmələr apardı. Əmirlər və ordu sərkərdələri dedilər ki, o (Hülakü xan) bu bəhanəni gətirməklə istəyir ki, Xəlifənin məmləkəti və Bağdadda (müqavimət edən) ordu qalmasın və nəticədə çətinlik olmadan bu məmləkəti ələ keçirə bilsin. Bu sözlərdən sonra xəlifə ordu göndərmək fikrindən daşındı. Padşah (Hülakü xan) mürtədlərin vilayətini azad etdikdən sonra Həmədana doğru yollandı və ordu göndərmədin deyərək xəlifənin qarşısında ciddi tələblər irəli sürdü. Xəlifə qorxub, vəzirlə məsləhətləşdi. Vəzir dedi: Çoxlu nağd pul, ləl-cəvahirat, qızıl-zinət əşyaları, bahalı qablar, sürətli miniklər, nökərlər, cariyələr və (qırmızı tüklü) dəvələr hazırlayıb göndərmək və üzr istəmək lazımdır. Xəlifə razılaşdı və göstəriş verdi ki, siyahı tutulsun və hazırlansın. Xüsusi adamlardan iki üç nəfəri təyin edib dedi ki, bu malları götürüb gedib ondan üzr istəsinlər. Dəvatdar Səğir və digər böyük rəsmilər (öz aralarında) dedilər ki, bu vəzirin (Müəyyidəddin ibn Əlqəm) bir planıdır ki, bununla öz işini qabağa aparmaq, bizləri, ordu sərkərdələri və türkləri ələ vermək, beləcə bizi məhv etmək istəyir. Gərək biz özümüz malların (şəhərdən) çıxmasını gözləyək, elçiləri tutaq, malları öz adamlarımıza verərək işlərimizi yoluna qoyaq və beləcə onları problemə salaq. Xəlifə bu məsələdən agah olanda malları və elçiləri göndərməkdən daşındı və hədiyyələrdən az bir qismini göndərdi. Padşah qəzəbləndi və dedi ki, xəlifənin özü gəlməlidir. Özün gəlməsən əsas üç adamın olan vəzirin, Dəvatdar Səğir və Süleymanşahdan birini göndər. Xəlifə heç birini etməyib üzrlü olduğunu bildirdi. Padşahın qəzəbi daha da artdı və Bağdada sarı hərəkət etmək fikrinə düşdü. Bir neçə dəfə (elçi) Dərnəki (gərginliyi azaltmaq üçün) get-gəl etdi. Bir neçə dəfə də İbnül-Cövzi (elçi kimi) ezam edildi. Heç birinin faydası olmadı. Padşah (hicri-qəməri təqvimi ilə) altı yüz əlli beşinci ilin şəvval ayında Həmədan hüdudlarından hərəkətə başladı. (Hülakü xanın sərkərdələri) Suğancaq Noyon və Baycu Noyon (hamıdan öncə) sağ tərəfdən hərəkət edərək Ərbildən, Daquq və Şahrzur dağlarının sağından adladılar. Kit Buğa Noyon və Ankiya Noyon isə soldan (yəni) Tikrit və Bayat tərəfdən hərəkət etdilər. Şah isə ordunun mərkəzində Kermanşah və Halvan yolu ilə yola düşdülər. Davatdar Əsğər də kiçik bir ordu ilə Bağdaddan çıxıb, Bəqubə (bölgəsi) ilə Baçsaray (bölgəsi) arasında Diyala çayı kənarında düşərgə saldı. Padşah Baycu Noyona göstəriş verdi ki, Dəclə çayını keçib qərb tərəfdən Bağdada girsin. Padşahın özü Halvan bölgəsinə çatdı. Ağır yüklərini orada qoyub yüngül miniklərlə keçdilər. (Xəlifənin) Yəzək adlı (komandirlərindən) biri Aybək Hələbinin əlinə düşdü. Onu tutub Hülakü xanın hüzuruna gətirdilər. O doğru danışacağına söz verdi və buna görə ona aman verdilər. Yəzək monqollara qoşuldu. Onun yanında (vaxtilə monqollara məğlub olmuş) Xarəzmşahilərin qalıqlarından (bır miqdar hərbi qüvvələr) var idi. O xəlifənin ordusuna məktub yazdı ki, bizlə siz eyniyik, mən artıq onun təbəəliyini qəbul edib vassalı oldum. Onlar mənimlə yaxşı rəftar edir. Ona görə sizin də canınıza yazığınız gəlsin. Siz də onun vassalı olun ki xilas ola biləsiz. O (Məmlukilərə tabe olan Hələbin əmiri) Qarasanqura da (oxşar məktubdan) yazdı. Məktubun cavabı gəldi: Hülakü xan kimdir ki, Abbasilərin canına qəsd edə bilsin?! Çünki bu Abbasi dövləti onun kimilərini çox görüb. Əgər həqiqətən də ona sülh lazımdırsa bura qədər niyə gəlir və xəlifənin məmləkətini niyə xarabazarlığa çevirir?! İndi əgər (Hülakü xan) Həmədana qayıtsa və üzr istəsə biz də Dəvatdar Əsğəri xəlifənin yanına xahiş edən bir vasitəçi kimi göndərərik ki, sülhü qəbul etsin. Bu məktub padşaha çatanda gülüb dedi: Bəli Allah nə istəsə odur və hökm onun hökmüdür. Suğancaq Noyon və Baycu Noyon Dəcləni keçəndə (Bağdad ordusu) elə bildilər ki, o tərəfdən hücuma keçən Hülakü xandır. Dəvatdar və ordusu bunu görüb Bə-

qubədan qayıdıb, Bağdad ətrafında Dəcləni keçdi və əl-Ənbar hüdudlarında (monqolların ordusunun önündə gedən) Suğancaq Noyonla üz-üzə gəldi. (Bağdad ordusu) Suğancaq ordusunu məğlubiyyətə uğratdı. (Məğlub olmuş ordu) Baycu Noyonla qarşılaşanda onları geri qaytardı və Dəvatdarın qüvvələrinin üstünə (yenidən) hücum çəkdib onu məğlubiyyətə uğratdılar. Çoxlu insanları öldürdülər. Onlar məğlub olaraq Bağdada qayıtdılar. Padşah da Diyala bölgəsindən keçdi. Onlar minib Bağdada qədər gəlmək üçün gəmilər saxlamamışdılar (və hamısını məhv etmişdilər). Padşah Buğa Timuru da qərb tərəfdən göndərdi. Padşah (hicri-qəməri təqvimi ilə) altı yüz əlli altıncı ilin məhərrəm ayının ortalarında Bağdadın darvazasına çatdı. Göstəriş verdi ki, şəhərin ətrafını hasarlasınlar ki, monqollar buna çəpər deyirlər. Bir gecə-gündüz ərzində padşahın ordusu bu tərəfdən, Buğa Timur, Suğancaq Noyon və Baycu Noyon isə qərb tərəfdən hündür hasar qaldırdılar. Divarın şəhərə sarı olan içəri tərəfindən böyük xəndək qazdılar. Mancanaqlar yerləşdirib, döyüş hazırlığı vəziyyətinə gəldilər. Xəlifə divanın sədrini və İbn-Darbusu az bir hədiyyələrlə göndərdi. (Xəlifə) deyirdi ki, əgər biz hədiyyələri çox göndərmiş olsaq, deyərlər ki, bizdən qorxurlar. Ona görə az hədiyyə göndərmək lazımdır. Padşah dedi: Niyə Dəvatdar və ya Süleymanşah gəlməyib? Xəlifə cavab yazıb bildirdi: Padşah buyurub ki, vəzir, Dəvatdar və ya Süleymanşahdan biri gəlsin. Mən sözümə əməl etdim. Ən böyük məqam olan vəziri göndərdim. Padşah da sözünə əməl edib, onların hamısını tələb etməsin. Padşah (məktubun cavabında) dedi: Mən bunu Həmədanda olanda demişdim, amma indi Bağdadda olduğum halda necə biri ilə kifayətlənə bilərəm? Ona görə hər üçünü göndərməlisən. Nəhayət döyüş başladı və Padşah şəxsən özü şəhərin şərq tərəfindən (Bağdad hasarının) Əcəm bürcü istiqamətində hərəkətə keçdi. Kit-Buğanın ordusu qövsvari düzülərək döyüşürdülər. Bulğay və Sabutay şəhərin sağ istiqamətində idilər. Buğa Timur Muqbilə (deyilən) bağın yerləşdiyi qərb istiqamətində idi. Suğancaq Noyon və Baycu Noyon Əzudi xəstəxanasının yerləşdiyi istiqamətdən döyüşə başladılar. (Hicri qəməri təqvimi ilə) Altı yüz əlli altıncı ilin Məhərrəm ayının 22-sindən başlayaraq altı gecə-gündüz döyüşdülər. Padşah göstəriş verdi və belə elan yazdılar ki, seyidlər, alimlər, keşişlər, şeyxlər və bizimlə döyüşməyən insanlara tərəfimizdən aman veriləcəkdir. Elanı oxa bağlayıb, altı tərəfdən şəhərə atdılar. Nəyahət gecə-gündüz şiddətli döyüşlərin ardından məhərrəm ayının iyirmi səkkizində gün çıxan zaman ordu divarı aşdı. Birinci əcəm bürcünü ələ keçirdilər. İstehkamların iki tərəfi ilə irəliləyir, camaatı sıxışdırırdılar. Zöhr namazına qədər, bütün qala və istehkam divarlarının üstü monqollar tərəfindən bağdadlılardan alınıb ələ keçirilmişdi. Padşah (bundan öncə şəhərin mühasirəyə alınması və kimsənin qaça bilməməsi üçün) divarın qaldırılması göstərişini verəndə demişdi ki, Bağdadın (yanından axan Dəclə çayının) yuxarı və aşağı tərəfində gəmilər saxlanılsın, körpü bağlanılsın, oralara gözətçilər qoyulsun, mancanaqlar yerləşdirilsin və neft (kimi yandırıcı maddələr) hazırlansın. Müharibə şiddətləndikdə Dəvatdar gəmi ilə üzü aşağı istiqamətdə qaçmaq istədi. Bu məlumat monqollara çatdıqda mancanaq və oxlarla onu hədəfə aldılar və o geri qayıtdı. Onun üç gəmisinin qarşısını alıb, adamlarını öldürdülər və silahlarını da müsadirə etdilər. Gəmidə olan Ələvilərin nəqibini (və ya seyidlərin Abbasi sarayında təmsilçisini) də öldürdülər. Şəhərin qala divarları ələ keçəndən sonra padşah göstəriş verdi ki, şəhər camaatı özləri divarları dağıtsınlar. Elçilər get-gələ başladılar. Padşah göstəriş verdi ki, Dəvatdar və Süleymanşah (onun hüzuruna gəlmək üçün) eşiyə çıxsınlar. Xəlifə əgər istəsə gəlsin, əgər istəməsə gəlməsin. Xəlifə ortancıl oğlunu Dəvatdar və Süleymanşahla birgə (onun hüzuruna) göndərdi. Dəvatdar (onun hüzuruna getməyib) geri addım atdı və Süleymanşaha dedi ki, (təslim olmayaq çünki) bizə çoxlu ordu qoşulmaqdadır. Onu şəhərə göndərdi ki tərəfdarlarını (müdafiə üçün) toplasın. Amma növbəti gün onun işi bitdi. Şəhərin camaatı Şərəfuddin Marağini və Şəhabəddin Zənganinin göndərib aman istədilər. Bundan sonra xəlifə işlərin gətirmədiyini görüb, şəhərdən çıxmaq üçün icazə istədi. O səfər ayının dördü şəhərdən çıxıb padşahla görüşdü. Onu, oğlunu, şeyxlər, seyidlər və imamlardan olan yaxınları ilə birgə (şəhərin) Kəlvaz darvazasında (ev dustağı olaraq) yerləşdirdilər. Padşah sonra göstəriş verdi və şəhəri qarət etdilər. Padşah xəlifənin evinə baxış keçirməyə gedib hər tərəfə baxdı. Xəlifəni ehzar etdirdi. Xəlifə dedi ki pişkeşləri versinlər. Padşah gətirilənlərin hamısını özəl adamlarına, sərkərdələrinə, ordu komandirləri və hüzzara verdi. Padşah xəlifənin qarşısına bir qab qızıl qoyub dedi: Bunu ye! Dedi: Yeyə bilmərəm. Padşah dedi: Bəs niyə orduya verməyib saxladın? Bu dəmir qapılardan silah düzəldib niyə Ceyhun çayının kənarına gəlmədin ki mən oranı keçib bura qədər gəlməyim?! Xəlifə dedi: Bu Allahın təqdiridir. Padşah dedi: Sənin başına gələcək olan da Allahın təqdiridir. Gecə qayıtdı. O zaman xəlifəyə dedi ki o və oğulları ilə olan qadınları çölə çıxart-

sın. Xəlifənin sarayına getdilər. 700 qadın və 1300 xidmətçi var idi. Digərlərini yola saldılar. Qarət başa çatdıqdan sonra, bir həftə sonra şəhər əhlinə aman verdilər və qənimətləri topladılar. Səfər ayının on dördü padşah şəhərin qapısından çıxıb gedəndə xəlifəni hüzuruna çağırtdırdı. Xəlifəni onun yanına gətirdilər. Ortancıl oğlunu da beş-altı xidmətçi ilə onun ardınca gətirdilər. Elə o gün olduğu yerdə onun və ortancıl oğlunun ömrü bitdi. Növbəti gün Kəlvaz darvazasında kiçik oğlunun və onunla birgə olanların ömrü bitdi. Növbəti gün padşah oradan köç edib getdi. Vəziri, Divanın sədrini və İbn-Darbusu Bağdada göndərdi. (Elə sabiq) Vəziri vəzirliyə, (sabiq) divan sədrini (Fəxrəddin Damğanini) divan sədri vəzifəsinə, İbn-Darbusu sənətçilərin işinə nazir şəxs, Əli Bahadırı isə (Bağdadda) polis rəisi təyin etdi. Göstəriş verdi ki, Bağdadı təmir etsinlər, ölmüş insan və heyvanları yığışdırsınlar, bazarları qaydasına salsınlar. Padşah qalib və müzəffər şəkildə Siyahkuh bölgəsinə gəldi. Buğa-Timuru Hillə və Vasit şəhərinə başçı təyin etdi. Hillə camaatı bundan öncə (Seyyid ibn Tavusun vasitəçiliyi ilə qan tökülmədən monqolların vassallığını qəbul edib) onların eli olmuşdular. Buğa Timur Hilləyə çatanda oranın əhalisini (üsyana qalxıb qalxmayacaqları ilə bağlı) yoxladı və sonra Vasitə getdi. Orada bir həftə qətllər və qarətlər həyata keçirdib qayıtdı. Buğa Timur sonra Şuştərə yollandı. Şərəfuddin ibn əl-Cövzini özü ilə apardı ki, şəhəri (razı salıb döyüşsüz öz vassalı və) eli etsin. Oranın ordusunun komandirlərinin və türklərin bir qismi qaçdılar. Bəziləri öldürüldülər bəzisi ilə təbəəliyi qəbul etdilər. Kufə və Bəsrə isə monqol ordusu getməmiş onların eli oldu.

## ƏDƏBİYYAT


**1.** علاءالدين عطاملک محمد جُوينى، تاريخ جَهانگُشاى جُوينى (623-681 هـ ق)، به تصحيح محمّد قزوينى، انتشار در سال 1937

**2.** Məlikov, Ə. متن و شرح رسالهٔ «كيفيت واقعهٔ بغداد» نصيرالدين طوسى // Metafizika jurnalı (ISSN:2616-6879), 2024, №1, səh.148-185 (http://dx.doi.org/10.33864/2617-751X.2024.v7.i1.148-185)

**3.** Tusi, X. N. (2015). Təcrid əl-etiqad. (Tərcümə və şərh: Məmmədov, E.M.), Araz nəşriyyatı, Bakı.

**4.** Məlikov, Ə. (2021). Nəsirəddin Tusinin sosial görüşləri. *Elm və Həyat jurnalı №4* (474), səh. 79-82. (http://dx.doi.org/10.13140/RG.2.2.13784.62726)

**5.** Məlikov, Ə. (2020). *Risalə fi fəziləti Əmir əl-Möminin Əli əleyhissəlam (Nəsirəddin Tusi).* ResearchGate elmi bazası, səh.1-4 (http://dx.doi.org/10.13140/RG.2.2.30898.63685)

**6.** Məlikov, Ə. (2020). *Risalə dər təvəlla və təbərra. (Nəsirəddin Tusi).* ResearchGate elmi bazası, səh.1-6 (http://dx.doi.org/10.13140/RG.2.2.19534.69441)

**7.** Məlikov, Ə. (2022). *Nəsirəddin Tusinin "Əsasül-iqtibas" əsəri əsasında məntiqə dair terminlər lüğəti*. Bakı: Elm nəşriyyatı,1-36 səh. (ISBN 978-9952-556-44-5), (http://dx.doi.org/10.13140/RG.2.2.20122.72640)

**8.** محمّد تقى مدرّس رضوى، العلّامة الخواجة نصيرالدِّين اَلطُّوسِي حياته و آثاره. تعريب: علي هاشم الأسدي، طبع اولى: 1419 ه.ق، الطبع و النشر التابعة للآستان الرّضوىّ المقدّسة. ISBN 964-444-104-4)«.



**АЛАДДИН МАЛИКОВ**

*Доцент Азербайджанского института теологии,*

*Научный сотрудник издательства "AcademyGate Publishing"*


## ПЕРЕВОД И КРАТКОЕ ОПИСАНИЕ ТРАКТАТА ХАДЖИ НАСИР АД-ДИНА ТУСИ «КАЧЕСТВО БАГДАДСКОГО СОБЫТИЯ»

Хаджа Насир ад-Дин Туси был не только выдающимся учёным и теоретиком, но и видным политическим деятелем. Он завоевал доверие и уважение Хулагу-хана и его сына Абака-хана, что позволило ему обрести значительное влияние и авторитет при дворе. Туси также сыграл важную роль в определении как внутренней, так и внешней политики государства Илханидов. Нападение монголов на исламские земли, особенно на Багдад - центр исламского халифата, стало значимым событием с серьезными последствиями. Среди последствий - падение

Багдада, уничтожение династии Аббасидов, убийство халифа и масштабные разрушения в регионе.

Цель данной статьи - кратко осветить обвинения, связанные с этими событиями, и опровергнуть их, основываясь на древнейших исторических источниках. Поэтому на первом этапе мы решили перевести краткий трактат Ходжи Насир ад-Дина Туси (авторства самого Туси) под названием «О сущности Багдадского события», который содержится в книге «Джахангушайи Джувейни». Несмотря на его небольшой объем, трактат охватывает все важные моменты, начиная с принятия Хулагу-ханом решения о битве и заканчивая захватом Багдада и анализом внутренних причин падения Аббасидского халифата. Важность этого трактата заключается в том, что он был написан непосредственным участником и свидетелем этих событий. Во-первых, сам Туси был очевидцем Багдадского события. Во-вторых, в этом труде Туси исследует природу монгольского похода на Багдад, не упоминая о своем возможном участии в этих действиях. В-третьих, если бы Туси играл какую-либо роль в этих событиях или стремился бы отомстить приверженцам иных убеждений, он хотя бы намекнул на свою роль или выразил одобрение произошедшему. Однако, как можно увидеть из текста трактата, таких указаний там не содержится.

*Ключевые слова:* Насир ад-Дин Туси, падение Багдада, Хулагу-хан, последний Аббасидский халиф, аль-Муста’сим.

**ALADDIN MALIKOV**
*Associate professor in Theology Institute of Azerbaijan,*
*Scientific researcher in the “AcademyGate Publishing”*

## TRANSLATİON AND BRİEF DESCRİPTİON OF KHWAJA NASİR AL-DİN TUSİ'S TREATİSE "ON THE NATURE OF THE BAGHDAD EVENT"

Khwaja Nasir al-Din Tusi was both a prominent scholar and theorist, as well as a distinguished political figure. He gained the favor and respect of Hulagu Khan and his son Abaqa Khan, acquiring significant influence and prestige within the court. Tusi also played a crucial role in shaping both the internal and external policies of the Ilkhanate state. The Mongol invasion of Islamic territories, particularly their attack on Baghdad, the center of the Islamic Caliphate, had profound consequences. The fall of Baghdad, the end of the Abbasid dynasty, the execution of the caliph, and widespread destruction across the region are considered some of the key outcomes of this invasion.

The aim of this article is to briefly examine the accusations related to these events and refute them based on the oldest historical sources. To this end, we have decided to begin by translating the short treatise "On the Nature of the Baghdad Event," authored by Khwaja Nasir al-Din Tusi himself, which is found in the work Jahangusha-yi Juwayni. Although the treatise is brief, it addresses all key aspects, from Hulagu Khan's decision to engage in battle, to the capture of Baghdad, and an analysis of the internal factors that contributed to the collapse of the Abbasid Caliphate. The importance of this treatise lies in the fact that it was written by a direct participant and witness to the events in question. Firstly, Nasir al-Din Tusi was an eyewitness to the Baghdad events. Secondly, in this work, Tusi analyzes the nature of the Mongol campaign against Baghdad without mentioning any personal involvement or role in these actions. Thirdly, if Tusi had played a role in the event or harbored intentions of revenge against other ideological groups, he would have hinted at or demonstrated his role or approval of the events. However, such claims are entirely absent from this treatise.

*Keywords:* Nasir al-Din Tusi, fall of Baghdad, Hulagu Khan, last Abbasid caliph, al-Mustasim.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 sentyabr 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Anar İsgəndərov.*